# Hindistanda Türklər və Türk mədəniyyəti



**Aydın Mədətoğlu Qasımlı**
**filologiya üzrə fəlsəfə doktoru**

**(əvvəli ötən sayımızda)**

***Hindistanda son Türk hakimiyyəti Teymuroğullarının adı ilə bağlıdır. Ata tərəfdən Əmir Teymur nəslindən, 'Barlas' Türk boyun- dan, Əmir Teymurun oğlu Miranşahın nəvəsi Ömər Şeyxin oğlu, anası Çingiz Xan nəslindən Çağatay xanın nəvələrindən Yunus Xanın qızı Qutlu Nigar Xanım olan, özünün və ordusunun Türk olması ilə fəxr edən Zahirəddin Məhəmməd Babur (1483-1530) 1519-cu ildə Hindis- tana gəlmişdir. O, Əfqanlı Dehli Sultanı ilə yeddi illik mücadilədən sonra Pəncabın böyük şəhərlərini, Dehli, Aqra, Luknov, Benqal və bütövlükdə Hindistanı içinə alan tarixdə məşhur Türk-hind İmperatorluğunun (1526-1858) əsasını qoymuş, Əfqan əmirlərini, hind prens- lərini, Racput hökmdarını məğlub edərək Əmir Teymurun qanuni varisi olmuş, Bütpərəstliyə qarşı başarılarından dolayı 'Qazi' deyə anılmışdı.***

Türk ədəbiyyatındakı yüksək mövqeyi və şairliyi ilə məşhur olan, elmə, sənətə yüksək qiymət verən bu dahini, Türk hökmdarlarından bəhs edən bütün orta əsr müəllifləri və müasir tədqiqatçılar belə anladırlar: "Babur bütün səfərlərində öz kitabxanasını yanında daşıtmış, "bütün savaşlar və başarılar ərəfəsində də öz bioqrafiyasını yazmağa vaxt ayırmışdı. Öz həyatını təsvir edən Türkcə nəsrlə yazılmış "Baburnamə" adlı bu bioqrafik şah əsər dünya ədəbiyyatının ən diqqətəşayan əsərlərindən biridir. Babur həmçinin Türkcə "Əruz risaləsi", hənəfi fiqhinə aid "Mübəyyən" adlı bir əsər, təsəvvüfə aid "Risaleyi-Validin" və "Divan" kimi önəmli əsərlər yaratmışdır. Babur ən incə və ən nəfis əhatəli bir mədəniyyətə sahib idi. Türk dədələrindən gücü və cəsarəti miras olaraq almış, mahir döyüşçü, qılıncoynadan və oxçu idi. Süvarilikdə insanı heyrətləndirən başarıları vardı. Nəhəng çayları üzərək keçmişdi. Musiqi alətlərini çalar və özü də musiqi bəstələrdi. Xəttat, din alimi və yazıçı idi. Yazdığı Türkcə və Farsca şeirləri onun yüksək səviyyəli bir sənətkar olduğunu sübut edir. Baburun XV əsr şairlərinin heç birindən, hətta Əlişir Nəvayidən geri qalmayan təmiz, saf bir Türk dili, təbii ilhamı vardır. Duyduğu və düşündüklərini açıq bir şəkildə söyləmiş, cürətli məcazları ilə səmimilikdən və təbiilikdən ayrılmamışdır... Babur yazmışdır: "Əgər ata-baban yaxşı bir qanun qoymuşsa, onu qoru və həyata keçir, pis bir qanun qoymuşsa, onu dəyişdir, daha yaxşısını yap"... Onun "Baburnamə"si Yuli Sezarın "Xatirələr"indən daha ciddi və daha səmimidir. Belə ki, Babur düşmənlərinin qüsurlarını sayarkən onların üstün cəhətlərini də qeyd etmiş, mərdanəlik göstərmişdir. Qurduğu təməl üzərində xələfləri qüdrətlərini daha da artırmağa davam etmişlər. Babur Şahın qurduğu böyük Türk-hind İmperatorluğu daha uzun və şanlı bir tarixə sahib olmuşdur". (Seçmələr bizimlir - A.M. Bax: Grenard. Babur. Paris, 1930; Prof. Dr. Laszlo Rasonyi. Tarihte Türklük. Ankara, 1971, səh. 190; Köprülü Mehmet Fuat. İslam Ansiklopedisi. "Babur" maddəsi. II cild, səh. 180-187; Abdulkadir İnan. Çağatay ede-biyatı, Türk dünyası. III cild, Ankara, 1992, səh. 93, 94; Prof. Dr. Anıl Çeçen. Türk devletleri. Ankara, 2003, səh. 301-306).

Özü iki böyük Türk cahangirinin - Çingiz Xan və Əmir Teymurun varisi olmasına baxmayaraq öz şəxsi zəkası və fəaliyyəti ilə Hindistanda elə bir səltənət yaratmışdı ki, bu Türk səltənəti sonda Hindistanda müsəlman Türk və buddist hindlilərin qarışığından yeni bir xalq - Pakistan xalqı tarix səhnəsinə çıxmışdı. Bunu nəzərə alan XV əsr Benaresli hind din filosofu Kabir yazmışdı: "Qəlbin təmizliyi Qanq çayında yuyunmaqdan daha önəmlidir. Hindlilər və Türklər eyni gildən yapılmış qablardır. Tanrını sevən və yaxşı hərəkət edən hər kəs biri digərinin qardaşıdır". (İqtibas Rasonyinin göstərilən əsərindən götürül- müşdür. Bax: səh. 169).

Baburun yaratdığı Hindistandakı bu Türk İmperatorluğunu Avro- pa tarixçiləri heç bir elmi əsasa dayanmayan "Böyük Moğol İmpera- torluğu" adlandırmışlar. Halbuki, bu ad bu dövlətə aid heç bir tarixi mənbədə və heç bir İslam müəllifi tərəfindən işlədilməmişdir. Ağ Hunlardan başlayaraq X-XII əsrlərdə Qəznəlilər, XIII-XIV əsrlərdə Dehli Türk Sultanlığı, XVI-XIX əsrlərdə Türk Baburlular tərəfindən idarə olunan Hindistanda Fətihpur-Sikri, Kəlküttə, Madras və Bombey kimi yeni salınan şəhərlər, tikilən böyük memarlıq abidələri, camilər, türbələr, bədii əsərlər Moğolların deyil, məhz Türklərin əzəmət və dühasının məhsuludur.

Baburdan sonra yerinə keçən oğlu Humayun (1530-1556) və nəvəsi Cəlaləddin Əkbər Şah (1556-1605) Türk-hind İmperatorluğunu daha da genişləndirərək 75 il dövləti böyük bir başarı ilə idarə etmiş, "Xalqın dövlət üçün deyil, dövlətin xalq üçün" olduğunu bütün Hindistan xalqlarına mənimsətmişlər. Xüsusilə, dövlətin ən böyük hökmdarlarından olan Cəlaləddin Əkbər müxtəlif dil və dinlərin qaynayıb-qarışdığı bu ölkədə bütün din və məzhəb təmsilçiləri ilə mübahisələr apararaq sonda Hindistanda mənəvi bir birlik yaradaraq İslam və hindu dinlərinin əsasında "Dini-İlahi" adlı yeni bir din vücuda gətirmiş, ibadətlərinə də "Ayini-Əkbər" adını vermiş, din ayrılıqlarını aradan qaldırmış, hindlilərlə müsəlmanların hüquq bərabərliyini təmin etmiş önəmli bir xarici siyasət yürüdərək Osmanlı, Səfəvi, Özbək və Portəgiz dövlətləri ilə əlaqələr yaratmış və beləliklə özündən sonra 300 il Hindistandakı Türk hegemonluğunu yaşatmağa nail olmuşdu. Məşhur alim Grenard göstərir ki: "Hindistanda kasta sistemi, xam sufilik və din ayrılıqları üzərində Türk fatehlərinin davamlı təsiri Əkbər Şah zama-nında tamamilə zəfər qazanmış olsaydı Hindistanın taleyi indi büsbütün başqa cür inkişaf edərdi". (Bax: Grenard Fr., göstərilən əsəri, səh. 120).

***Əkbər Şahdan sonra oğlu Cahangir (1605-1627) ədalətli bir şah olsa da, zəif və zövqə düşkün olduğundan fürsətdən istifadə edən İngilislər Hindistan ticarətinə əl uzatmış, İngilis tacirləri üçün Surat lima- nında bir bölmə açmışdılar ki, bu da Qərbin Hindistana müdaxiləsinin başlanğıcı olmuşdu. Cahangir Şahın ölümündən sonra yerinə keçən Xürrəm (Şah Cahan) adı ilə imperator olmuş (1628-1658), Dukkandakı Nizamşahlar, Bicapurdakı Adilşahlar və Qütübşahilər dövlətlərini ortadan qaldıraraq İmperatorluğa bağlamış, Tibetliləri məğlub etmiş, quzeydəki Qunduz və Bədəxşan bölgələrini işğal etmiş, Qəndəhar uğrunda Səfəvilərlə mübarizə aparmaq məqsədilə Osmanlılardan siyasi dəstək almaq istəsə də, buna nail ola bilməmiş, Osmanlı sultanı IV Mehmet onun arzusunu yerinə yetirərək dünyanın ən gözəl memarlıq abidəsi sayılan Aqradakı məşhur "Tac-Mahal" türbəsinin inşası üçün Türk memarlar göndərmişdi. Bu əvəzsiz abidənin qübbəsini Osmanlı memarı Mehmet İsa Əfəndi, xəttatlığını Səttar Xan, divarlarını Səmər- qəndli ustalar - Məhəmməd Şərif və Məhəmməd Hanif, şah tuğrasını isə Şirazlı Əmanət Xan yapmışdı. 20 ilə başa gələn bu nadir Türk sənət əsərini Cahanşah doğum yaparkən ölən həyat yoldaşı Mümtaz Mahalın xatirəsinə tikdirmiş və türbəyə 30 milyon rupi pul xərclənmişdi.***



Cahanşahdan sonra yerinə keçən I Aləmgir (1658-1707) 50 illik hakimiyyəti dövründə Hindistan üçün çox mühüm olan dini məsələlərlə yaxından maraqlanmış, Məkkə Şərifinə, Yəmən İmamına, Həbəkistan hökmdarına qızıl və gümüşlə yardım etmiş, Mərvar bölgəsini, Bicapuru tamamilə zəbt etmiş, Hindistanı bütünlüklə Türk hakimiyyəti altına almışdı. O, Müsəlmanlıq baxımından Məkkə, Türklük baxımından da Türküstan Türkləri ilə yaxın ilişgilər yaratmışdı. I Aləmgirin ölümün- dən sonra İmperatorluq zəifləməyə başlamış, qabiliyyətsiz oğulları və nəvələrinin bir-birləri ilə taxt-tac uğrunda çəkişmələrindən istifadə edən məhəlli xanədanlar üsyanlar törətmiş, Əfqanlar öz müstəqillik- lərini elan etmiş, bir çox limanlarda İngilislər Portagiz və Hollandları da sıxışdıraraq ticarəti öz əllərinə almışdılar. Nəticədə İmperatorluq Dehli və Heydərabad mərkəz olmaqla ikiyə parçalanmış, vəziyyətdən istifadə edən Nadir Şah Əfşar 1739-cu ildə Quzey Hindistanı və Dehlini zəbt etmişdi. Daha sonralar II Aləmgirin öldürülməsi (1759), Aləmşa- hın Benqalda məğlubiyyətə uğrayaraq İngilis himayəsinə girməsi, oğullarının İngilis məmuru kimi hərəkət etmələri və nəhayət 1857-ci ildə II Bahadır Şah zamanında partlaq verən böyük "Sipahi üsyanı"nı yatıran İngilislər üsyanda son hökmdar Bahadır Şahın əli olduğunu bəhanə edərək onu sürgün etmişlər. Bahadır Şah 1862-ci ildə Ranqunda öldükdən sonra da Hindistanı bütünlüklə Böyük Britaniya İmperator- luğuna bağlamış, 1877-ci ildə Kraliçə Viktoriya rəsmən Hindistan İmperatoriçəsi elan edilmişdir. Beləliklə, Hindistandakı 1300 illik Türk hakimiyyətinə son qoyulmuşdur.

Hindistan Türklərindən Gülbədən Əllami, Din Əhməd, Cahangir, Hadi Xan, Qeyrət Xan, Məhəmməd Kazım və b. kimi məşhur tarixçilər Hindistan Türk İmperatorluğunun tarixini müfəssəl qələmə almışlar. Çox təəssüflər olsun ki, Babur şah istisna olmaqla ondan sonra Türk dili İmperatorluğun rəsmi dövlət dili olub xanədan, ordu və dövlət bürokratiyasında işlənsə də, ədəbi və tarixi əsərlərin dili öncə Farsca, sonra isə Puştu dili olmuşdur. Lakin bütün bu əsərlərdə də Hindistan Türk hökmdarlarının şanlı tarixindən bəhs edilmiş, onların Hindistan üçün böyük işlər gördükləri xüsusi qeyd olunmuşdur. Məşhur hind tarixçisi İşvari Prasad Türk hökmdarlarının Hindistan xalqının rifahı üçün qeyrət sərf etdiklərini, böyük şəhərlər, körpülər saldıqlarını, önəmli ticarət yolları boyunca karvansaraylar tikdirdiklərini, böyük su kanalları çəkdirdiklərini xüsusi qeyd etmişdir. Bu Türk hökmdarları Türküstandakı sənət sevgisini, təbiət gözəllikləri qarşısında duyulan sezişi özləri ilə birlikdə Hindistana gətirmiş, cahanşümal memarlıq abidələri yaratmışdır.

Türklərin Hindistandakı fəzilətlərini yüksək dəyərləndirən müstə- qil Hindistanın ilk baş naziri Cəvahirəl Nehru göstərmişdir ki: "Hindis- tanın quzey batısından gələn mücahid Türklərin və onların Hindistana gətirdikləri İslam dininin hind tarixindəki əhəmiyyəti böyükdür. Çünki müsəlman Türklər vasitəsilə gələn İslam dini hind cəmiyyətində yayıl- mış olan fəsadı söndürmüş, sinif ayrılığını və "Pariya sistemi"ni (İnsanları cəmiyyətdən təcrid etmə - A.Q.) aradan qaldırmış, müsəl-manların inandıqları və yaşadıqları İslam qardaşlığı və bərabərliyi nəzəriyyəsi hindlilərin təfəkküründə dərin təsir yaratmışdır".

Türk-Hind İmperatorluğu dövründə Hindistanda maddi mədəniyyət nümunələri ilə yanaşı müəzzəm bir mənəvi mədəniyyət nümunələri də yaradılmışdı. I Aləmgirin ölümündən (1707) sonra Hindistan Türk İmperatorluğu zəifləməyə başlamış, qabiliyyətsiz oğulları və nəvələrinin bir-biri ilə taxt-tac uğrunda mübarizələrindən istifadə edən məhəlli xanədanlar üsyanlar törətmiş, Əfqanlar öz müstəqilliklərini elan etmiş, bir çox limanlarda İngilislər Portagiz və Hollandları da sıxışdıraraq, ticarəti öz əllərinə almış, nəticədə İmperatorluq Dehli və Heydərabad mərkəz olmaqla ikiyə parçalanmış, vəziyyətdən istifadə edən Nadir Şah Əfşar 1739-cu ildə Quzey Hindistanı və Dehlini zəbt etmişdi. Daha sonralar II Aləmgirin öldürülməsi (1759), Aləmşahın Benqalda məğlu- biyyətə uğrayaraq, İngilis himayəsinə girməsi, oğullarının ingilis mə-muru kimi hərəkət etmələri və nəhayət, 1857-ci ildə II Bahadır Şah zamanında baş verən böyük "Sipahi üsyanı"nı yatıran İngilislərin üsyanda son hökmdar Bahadır Şahın əli olduğunu bəhanə edərək onu sürgün etmələri, ən nəhayətdə isə 1862-ci ildə Ranqunda onun ölməsi ilə Hindistan bütünlüklə Böyük Britaniya İmperatorluğuna bağlanmış oldu. Artıq 1877-ci ildə Kraliçə Viktoriya rəsmən həm də Hindistan İmperatriçəsi elan edilmiş və beləliklə də Hindistandakı 1300 illik Türk hakimiyyətinə son qoyulmuşdu. Hindistandakı Türklər yerli xalqla qay- nayıb-qarışmış və bölgədə Pakistan, Banqladeş və Kəşmir müsəlman- ları adı alaraq, Türklüklərini bütünlüklə itirmişlər.

***Son olaraq qeyd edək ki, Teymuroğulları dönəmində Səmərqənd, Heart, Şiraz, Buxara, Aqra, Dehli və s. kimi şəhərlər Türk mədəniyyət mərkəzinə çevrilmiş, böyük Türk mütəsəvvifi, Türküstan Piri Əhməd Yəzəvinin qədim Oğuz yurdundakı Yəzə şəhərindəki (bugünkü Türküstan şəhəri – A.Q.) məzarı Əmir Teymurun sayəsində müəzzəm bir türbəyə sahib olmuş və müqəddəs bir ziyarətgaha çevrilmiş, Səmər- qənd kimi şəhər "Tacmahal" kimi nadir sənət incisi onlardan tarixə yadigar qalmışdır ki, bütün bunlar Əmir Teymur və oğullarının Türk mədəniyyət tarixindəki böyük xidmətlərinin göstəricilərindəndir. Əmir Teymur və oğulları zamanında Türk ədəbiyyatı, riyaziyyat, astranomi- ya, memarlıq və rəsm sənəti yüksək inkişaf etmiş, yollar salınmış, su-varma kanalları inşa edilmişdi.***